**Kənd təsərrüfatı təyinatlı, habelə digər kateqoriya torpaqlarda məqsədli təyinatı əkin və çoxillik əkmələrin altında olan torpaqların aqrokimyəvi analizinin (tədqiqatının) aparılmasına dair**

# T Ə L İ M A T

Kənd təsərrüfatı torpaqlarının məqsədli və səmərəli istifadə edilməsi, onların təbii münbitliyinin korlanmasına yol verilməməsi, bərpası və artırılması, torpaq sahələrinin zərərli və antropogen təsirlərdən, texnogen çirklənmə və tənəzzülə uğrama hallarından qorunması, habelə torpağın əlverişli morfoloji, fiziki-kimyəvi, mexaniki və bioloji şəraitdə kənd təsərrüfatı bitkilərinin qida elementləri, rütubət ehtiyatları və onların həyatı üçün digər vacib maddələrlə müntəzəm təmin edilməsi məqsədilə aqrokimyəvi tədqiqat işlərinin aparılması, bitkilərin yaxşı inkişafı və yüksək məhsuldarlığı üçün gübrə normasının düzgün tənzimlənməsi çox vacibdir.

## 1. ƏSAS MÜDDƏALAR

**1.1.** Bu təlimatın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilmişdir:

**1.1.1. aqrokimyəvi analiz** – gübrə, torpaq, bitki və iqlim, onların qarşılıqlı əlaqəsi, əkinçilikdə maddələrin dövranını və gübrələrin səmərəli tətbiqini öyrənmək məqsədi ilə həyata keçirilən laboratoriya analizi.




*Şəkil 1.* *Gübrə, torpaq, bitki və iqlim sistemi arasında olan dialektik qarşılıqlı əlaqə.*

**1.1.2. torpaq münbitliyi** – torpağın bitkiləri qida elementləri, su ilə, onların köklərinin hava və normal fəaliyyətləri üçün kifayət qədər istiliklə təmin etməsidir.

**1.1.3. bitkilərin qidalanması** – xarici mühitdən udularaq, qida maddələrinin bitki həyatı üçün vacib birləşmələrə çevrilməsi, hərəkəti və gələcək istifadə yerlərində toplanması prosesidir.

**1.1.4. gübrə** – tərkibində bitkilər üçün qida elementləri olan və ya torpağa lazımlı qida maddələrini özündə toplayan üzvi, mineral və ya bakterial maddələr.

**1.2.** Əkin sahəsində və digər kənd təsərrüfatına yararlı torpaqlarda aqrokimyəvi tədqiqat işlərinin aparılması nəticələri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən təhlil edilir və fermerə həmin nəticələr əsasında hazırlanmış tövsiyələr təqdim edilir. Tövsiyələrdə aşağıdakı məlumatlar öz əksini tapır:

— əkin sahəsinin tutduğu ərazi (bölgüsü) barədə ümumi məlumat;

— əkin sahəsində torpaqların aqrokimyəvi göstəriciləri;

— planlaşdırılmış məhsulun alınması üçün ayrı-ayrı kənd təsərrüfatı bitkilərinə veriləcək gübrələrin elmi əsaslandırılmış norması;

— ərazinin iqlim şəraiti, torpağın tip və xassəsi, becərilən bitkilərin bioloji xüsusiyyətləri nəzərə alınmaqla, gübrələrin forması, verilmə üsulu və vaxtı;

**1.3.** 1.2-ci bənddə qeyd olunan tövsiyələrin hazırlanmasından ötrü torpağın üzvi tərkibi, mexaniki tərkibi, mühiti (pH), şoranlaşma və şorakətləşməsi (duzluluq) və qida elementlərinin miqdarı kimi mühüm göstəricilər diqqətlə yoxlanılmalıdır:

- **PH-ın** təyini - pH torpağın reaksiya mühiti olmaqla bərabər bitkilərin inkişafına, qida maddələrinin mənimsənilməsinə, eyni zamanda mikroorqanizmilərin inkişafına təsir göstərən ən mühüm faktordur. pH torpağın turş, neytral və qələviliyini ifadə edir. pH-ın 6.5-7.5 intervalında olması əksər bitkilər üçün optimal mühit sayılır və optimal mühitdən kənarlaşdıqca verilən gübrələrin bitkilər tərəfindən mənimsənilməsi çətinləşir. Ona görə də verilən gübrələrin effektivliyinin və iqtisadi səmərəliliyinin artırılması məqsədilə torpağın pH analizinin aparılması vacibdir.
- **Humus** - torpaqda böyük əhəmiyyətə malikdir və bitkilər tərəfindən istifadə olunan azotun əsas mənbəyi hesab olunmaqla yanaşı torpağın fiziki-kimyəvi göstəricilərinin yaxşılaşmasında mühüm rola malikdir. Torpağın fiziki-kimyəvi, bioloji xassələri humusla təminolunma səviyyəsindən çox asılıdır və azotlu gübrə tövsiyəsi zamanı nəzərə alınan əsas göstəricidir. Ona görə də torpaqda humusun laboratoriya analizini aparmaq lazımdır.
- **Fosfor** - azot və kalium ilə birlikdə bitkilərin ən çox ehtiyac duyduğu və bitki üçün vacib olan qida elementlərindən biridir. Torpaqda fosfor çatışmadıqda bitkinin kökündə, yarpağında, meyvəsində inkişaf zəif olur, məhsuldarlıq aşağı, məhsul keyfiyyətsiz olmaqla yanaşı, bitki xəstəlik və zərərvericilərə qarşı davamsız olur. Bitki vegetasiya müddətində mənimənilən fosfora yüksək miqdarda tələbat duyur və torpaqda onun miqdarı yetərli olmadığı üçün torpağa hər il düzgün miqdarda fosfor gübrələri vermək lazım gəlir. Ona görə də bitkilərin fosfora olan ehtiyacını ödəmək üçün torpaqda mənimsənilən formada olan fosforun miqdarını təyin etmək lazımdır.
- **Kalium** − bitkilərin həyatında kalium çox mühüm rol oynayır. Kaliumun enerji mübadiləsi, nişasta sintezi, nitratların azaldılması, fotosintez və şəkərin parçalanması kimi bitkidə gedən mühüm proseslərdən məsul olan 80-dən çox müxtəlif fermenti aktivləşdirdiyi məlumdur. Kalium hüceyrənin osmotik təzyiqinin aşağı salınmasını təmin edərək, yarpaq hüceyrələrindən su itkisini azaldır və kök hüceyrələrinin torpaq məhlulundan su götürmə qabiliyyətini artırır. Kalium fotosintez, zülal sintezi, paxlalı bitkilərdə azotun fiksasiyası, nişastanın əmələ gəlməsi və karbohidratların translokasiyası üçün vacibdir. Kalium bitkilərin ətraf mühitin stresslərinə uyğunlaşmasına kömək edir. Kalium quraqlığa, şaxtaya və zərərvericilərə qarşı davamlılıq yaradır. Bitkidə kalium çatışmazlığının aradan qaldırılması həm göbələk, həm də bakterial bitki xəstəliklərinin təsirini və şiddətini azaltmaq üçün mühüm tədbirlər arasındadır.
- **Azot** − bütün bitkilərin sağlamlığında və böyüməsində mühüm rol oynayır. Azot bitkilərə fotosintez etməyə kömək edir ki, fotosintez nəticəsində əmələ gələn karbohidratlar bitki üçün qida kimi istifadə olunur. Azot da bitkilərin həyatda qalması üçün lazım olan zülalları meydana gətirən amin turşularının əsas komponentlərindən biridir. Torpaqda azot çatışmazlığı bitkidə fotosintezin zəifləməsinə, çoxluğu isə digər əsas qida maddələrinin bitki tərəfindən udulmasına mane ola bilər. Buna görə azotun düzgün balansını qorumaq üçün torpaqda miqdarı təyin edilməlidir.

• **Duzluluq** – bitki məhsuldarlığını aşağı salan əsas amillərdən biridir. Mərkəzi Aran rayonlarında şoranlaşma əsas limitləşdirici faktorlardan hesab olunur. Torpağın şorlaşmasının səbəbi torpağın tərkibində müxtəlif duz birləşmələrinin normadan çox olmasıdır. Ona görə də torpaqlarda duzluluq analizlərinin aparılması şorlaşma ilə mübarizə baxımından, eləcədə gübrələmə zamanı nəzərə alınması baxımından məqsədəuyğundur.

**1.4.** Bol və yüksək keyfiyyətli məhsulun alınmasından ötrü torpağın məhsuldarlıq göstəriciləri təyin olunmalıdır. Torpağın məhsuldarlıq göstəriciləri onun kimyəvi və fiziki göstəricilərindən ibarətdir.

**Torpağın kimyəvi göstəriciləri:**

Ph (torpaq ekstraktında);
Əhəng (karbonatlıq);
Duzluluq;
Üzvi maddə (humus);
Nitrat azotu ($NO_3$);
Ammonium azotu ($NH_4$);
Ümumi azot;
Mütəhərrik fosfor ($P_2O_5$);
Mütəhərrik kalium ($K_2O$);
Mütəhərrik natrium ($Na_2O$);
Mütəhərrik kalsium (Ca);
Mütəhərrik maqnezium (Mg);
Mənimsənilə bilən bor (B);
Mənimsənilə bilən mikroelementlər (Fe, Cu, Zn, Mn).

**Torpağın fiziki göstəriciləri:**

Tarla tutumu;
Solma nöqtəsi;
Elektrik keçiriciliyi (torpaq ekstraktında);
Nəmlik;
Su keçiriciliyi ;
Həcmi çəkisi (pozulmamışsa);
Sıxlığı.

## 2. TORPAQ ANALİZİNİN (TƏDQİQATININ) APARILMASI ÜÇÜN NÜMUNƏLƏRİN GÖTÜRÜLMƏSİ

2.1. Torpağın aqrokimyəvi analizinin (tədqiqatının) aparılması məqsədilə torpaq nümunəsi bu Təlimata uyğun olaraq fermer tərəfindən götürülərək laboratoriyaya təqdim edilir. Torpaq analizlərinin (tədqiqatının) aparılması üçün torpaq nümunələrinin düzgün götürülməsi əhəmiyyətlidir. Nümunənin götürülməsinin laboratoriya tərəfindən aparılmasını istəyən fermer bunun üçün ödənişli xidmətdən istifadə edə bilər.

2.2. Torpaq nümunəsi götürülümüş yerlərin coğrafi koordinatlarının qeyd edilməsi mütləqdir. Əks halda nümunələr qəbul olunmur.

2.3. Təyin olunmuş ərazidə əkiləcək bitkinin (bitki qruplarının) xüsusiyyətlərinə uyğun olaraq torpaq nümunələrinin götürülmə dərinliyi fərqlənir (Cədvəl 1).

*Cədvəl 1*

| Bitki (bitki qrupları) üzrə torpaq nümunələrinin götürülmə dərinliyi (sm) | |
|---|---|
| **Birillik bitkilər** | **Ağac və kol bitkiləri** |
| 0-25 və ya 0-30 | 0-30 |
| | 30-60 |

2.4. Torpaq nümunələrin götürülməsi üçün aşağıdakı avadanlıqlardan istifadə zəruridir:

- ❖ Paslanmaz polad bel və ya bur
- ❖ Torpaq nümunələrinin yığılması və qarışdırılması üçün qab
- ❖ Nümunələri qablaşdırmaq üçün təmiz polietilen torbalar
- ❖ GPS qurğusu və ya müvafiq smartfon tətbiq
- ❖ Nümunə haqqında məlumatları daxil etmək üçün qeydiyyat vərəqi

2.5. Yağışlı və şaxtalı günlərdə, palçıqlı şəraitdə torpaq nümunələrinin götürülməsi məqsədəuyğun deyil. Nümunələr əsasən **məhsul yığımından dərhal sonra** əkinə qədər olan müddətdə götürülərək analiz olunmalıdır. Bu **payızlıq bitkilər üçün əsasən iyun-oktyabr**, **yazlıq bitkilər üçün isə oktyabr-mart** ayına qədər olan dövrü əhatə edir.

Aşağıda qeyd olunan sahələrdən nümunə götürmək olmaz:

- ❖ Çəpər xətlərindən, yol kənarından, xarman yerindən və heyvan yatağından
- ❖ Gübrə verilmiş yerlərdən
- ❖ Qarışqa, göstəbək, siçan və s. kimi canlıların yuvalarından və ətrafından
- ❖ Tarlanın su toplanan çökək hissələrindən
- ❖ Şaxtalı, yağışlı və palçıqlı günlərdə
- ❖ Tarlada olan ağacın altından

2.6. Nümunə götürülməli yerləri müəyyən etmək üçün sahə aşağıdakı parametrlərə görə hissələrə bölünür və hər hissədən ayrı nümunə götürülür:

- ❖ Rənginə görə (tünd, açıq boz, boz,qırmızı və s.)
- ❖ Relyefinə görə (yamacdan və ətəkdən ayrı-ayrılıqda analiz götürülür)
- ❖ Gübrələnməsinə görə (gübrə verilən və verilməyən yerlər)
- ❖ Eroziyaya uğramasına görə
- ❖ Çirklənməsinə (pestisid və s.) görə

2.7. Nümunələr aşağıdakı ardıcıllaqla formalaşdırılmalıdır:

- ❖ Sahə relyefinə, rənginə, torpaqdan istifadə vəziyyətinə görə və s. hissələrə bölünür:
- ❖ Hər hissəsədən nümunələr ziq-zaq şəklində (nümunələrin götürülmə nöqtələri) toplanır
- ❖ Ziq-zaqın hər nöqtəsindən eyni miqdarda nümunə götürülür
- ❖ Ziq-zaqın hər nöqtəsindən toplanan nümunələr bir qaba yığılır, tam qarşdırılır və vahid nümunə (kompozit) ayrılır

*Qeyd: nümunlələr sahənin girişindən 20-30 metr məsafədə və qurtaracağına 20-30 metr qalmış götürülməlidir.*

2.8. Nümunələrin götürülməsi üçün torpaq aşağıdakı qeyd olunan kimi qazılmalıdır:

❖ Torpağın səthi təmizlənir
❖ Təlimatın 2.3-cü bəndinə uyğun dərinlikdə V şəkilli çuxur qazılır
❖ Çuxurun səthləri təmizlənir
❖ 2-3 sm-lik torpaq dilimi götürülür
❖ Dilimin kənarları atılır və mərkəzi hissəsi qaba yığılır

2.9. Nümunələrin qablaşdırılması aşağıdakı şəkildə həyata keçirilməlidir:

❖ Ziq-zaq xəttindən toplanmış bütün nümunələr yaxşı qarışdırlır və torpaq eyni ölçüyə gətirilir
❖ 4 bərabər hissəyə bölünür və 2 hissəsi atılır
❖ qarışdırılaraq yenidən 4 hissəyə bölünür və 2 qarşı tərəfdəki hissə vahid nümunə kimi polietilen paketə yığılır və üzərinə məlumat vərəqi yapışdırılır
❖ vahid nümunə çəkisi 1-1.5 kq olmalıdır.

2.10. Məlumat vərəqi doldurularkən hər bir nümunənin üzərinə aşağıdakı məlumatlar qeyd edilməlidir:

❖ fermerin adı, soyadı;
❖ nümunənin götürüldüyü rayon (şəhər) və kənd;
❖ əkilmiş və ya əkiləcək bitki;
❖ nümunənin götürülmə anına verilmiş gübrə;
❖ nümunənin götürüldüyü dərinlik;
❖ nümunə yerinin coğrafi koordinatları (GPS qurğusu və ya smartfon tətbiqləri ilə);
❖ nümunənin götürülmə tarixi;
❖ torpaq sahibinin əlaqə nömrəsi.

## 3. TORPAQ NÜMUNƏLƏRİNİN ANALİZ (TƏDQİQAT) ÜÇÜN TƏQDİM EDİLMƏSİ

3.1. Bitkiçilik sahəsi üzrə subsidiya almaq üçün müraciət edən fermerin torpaq sahəsinin aqrokimyəvi analizinin (tədqiqatının) aparılması və nümunənin götürülməsi onunla Mərkəz arasında bağlanan **müqavilə** əsasında qəbul olunur.

3.2. Torpaq sahəsinin aqrokimyəvi analizinin (tədqiqatının) aparılması və nümunənin götürülməsi üzrə ödənişli xidmət Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 avqust tarixli 307 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fitosanitar tədbirlərinə və dövlət fitosanitar xidmətlərinə görə xidmət haqqının məbləğləri”ndə müəyyən edilmiş tariflərə uyğun olaraq müqavilə ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir.

3.3. Fermer bu məqsədlə torpaqların aqrokimyəvi analizinin (tədqiqatının) aparılması üçün akkreditasiya edilmiş laboratoriyalara və ya aidiyyəti elmi-tədqiqat institutlarına müraciət edə bilər. Mərkəzin regional laboratoriyalarının siyahısı Cədvəl 2-də göstərilmişdir.

*Cədvəl 2*

| № | Regional Laboratoriya | Telefon | Email |
|---|---|---|---|
| 1 | Mərkəzi Laboratoriya | 012-342-42-50 | m.laboratory.lesm@axa.gov.az |
| 2 | Quba | 012-562-83-57 | quba.lesm@axa.gov.az |
| 3 | Şamaxı | 020-265-21-56 | shamakhi.lesm@axa.gov.az |
| 4 | Salyan | 012-562-83-57 | salyan.lesm@axa.gov.az |
| 5 | Sabirabad | 021-235-51-26 | sabirabad.lesm@axa.gov.az |
| 6 | Göygöl | 022-205-53-22 | goygol.lesm@axa.gov.az |
| 7 | Şəki | 024-245-09-76 | sheki.lesm@axa.gov.az |
| 8 | Tovuz | 022-315-69-38 | tovuz.lesm@axa.gov.az |
| 9 | Lənkəran | 025-255-02-11 | lenkeran.lesm@axa.gov.az |
| 10 | Bərdə | 020-202-23-05 | berde.lesm@axa.gov.az |
| 11 | Ucar | 020-213-06-84 | ucar.lesm@axa.gov.az |

3.4. Fermer torpaq nümunələrinin götürülmə qaydasına dair bu təlimatla Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (bundan sonra - Agentlik) rəsmi internet səhifəsində - axa.gov.az-dan, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi dövlət aqrar inkişaf mərkəzlərindən və ya Mərkəzin regional laboratoriyalarından əldə etməklə tanış ola bilər. **Təlimata uyğun götürülməyən nümunələrin analiz nəticələrindən laboratoriya və ya elmi-tədqiqat institutu məsuliyyət daşımır**.

3.5. Torpaqların aqrokimyəvi analizlərinin (tədqiqatlarının) nəticələri ilə bağlı “Torpaq analizi (tədqiqatı) məlumat bazası” Agentlik tərəfindən formalaşdırılır.

## 4. BİTKİÇİLİK SAHƏSİ ÜZRƏ SUBSİDİYA ALMAQ ÜÇÜN TƏLƏB OLUNAN TORPAQ ANALİZİNİN (TƏDQİQATININ) ŞƏRTLƏRİ

4.1. Aşağıda qeyd olunan torpaq göstəriciləri aqrokimyəvi analiz (tədqiqat) üçün bitkiçilik sahəsi üzrə subsidiya almaq məqsədilə müraciət üzrə minimal tələbdir (Cədvəl 3). Fermer torpağın digər göstəricilərinin səviyyəsini müəyyən etmək məqsədilə aqrokimyəvi analizin (tədqiqatın) aparılması üçün müraciət edə bilər.

*Cədvəl 3*

| № | Təyin olunan torpaq göstəricisi |
|---|---|
| 1 | pH-ın (torpaq ekstratında) təyini |
| 2 | duzluluğun təyini |
| 3 | humusun təyini |
| 4 | mütəhərrik fosforun ($P_2O_5$) təyini |
| 5 | mənimsənilən kaliumun ($K_2O$) təyini |

4.2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nın 3.8.2-1-ci yarımbəndinə əsasən bitkiçilik sahəsi üzrə subsidiya almaq üçün müraciət edən fermerlər torpaqların aqrokimyəvi analizinin (tədqiqatının) nəticələrinə dair sənədləri “Elektron kənd təsərrüfatı” informasiya sisteminə daxil etməlidirlər.

4.2. Əkin sahələri üzrə torpağın relyefinə, formasına və əkiləcək bitkinin xüsusiyyətlərinə uyğun olaraq bəyan edilmiş ümumi əkin sahəsi üzrə hər 5 hektar ərazidən 1 nümunə (5-25 nöqtədən yığılmış torpağın qarışdırılaraq vahid nümunə hazırlanması) götürülür. Vahid sahədə yerləşən 50 hektardan böyük ərazilərdə 1 nümunə üçün daha böyük ölçüdə ərazinin təyin edilməsi ərazinin xüsusiyyətlərinə uyğun müəyyən edilə bilər.

4.3. Toxum subsidiyası almaq üçün müraciət edən fermerlər bəyan etdikləri ümumi toxumluq əkin sahəsi üzrə hər 2 hektar ərazidən 1 nümunə götürülərək aparılan torpaqların aqrokimyəvi analizinin (tədqiqatının) nəticələrinə dair sənədləri təqdim etməlidirlər.

4.4. Bir torpaq sənədi üzrə 5 ha və daha çox torpaq ərazisi üzrə bəyan etmiş fermerlər subsidiya almaq üçün torpaq analizinə cəlb olunur. 5 ha-dan az ərazi üzrə bəyan vermiş fermerlərin torpaq analizi könüllü müraciət əsasında aparılır.

4.5 Bitkiçilik sahəsi üzrə subsidiya almaq üçün müraciət edən fermərlərə məxsus vahid sahədə yerləşməyən, 5 ha-dan aşağı olan əkin sahələrinin (konturlar) hər il ən azı biri üzrə torpaq analizi (tədqiqatı) aparılmalıdır. Digər əkin sahələri (konturları) üzrə torpaq analizi (tədqiqatı) fermer tərəfindən öhdəlik götürülərək növbəti illərdə aparılır.

4.6. Bitkiçilik sahəsi üzrə subsidiya almaq üçün müraciət edən fermerin bəyan etdiyi torpaq sahəsi üzrə təqdim etdiyi aqrokimyəvi analizin nəticələri analizin aparıldığı əkin ilindən etibarən iki əkin ili (sentyabr – avqust) qüvvədə qalır.

4.7. Torpaq mülkiyyətçisi dəyişdiyi zaman yeni torpaq istifadəçisinin növbəti bəyan mövsümündə yenidən əkin sahəsini aqrokimyəvi analiz (tədqiqat) etməsinə ehtiyac yoxdur.

## 5. TORPAQ ANALİZİ NƏTİCƏLƏRİNİN İSTİFADƏSİ

5.1. Müasir bilik və bacarıqlara malik fermer becərdiyi bitkilərin ehtiyacına uyğun qida elementlərini torpağa verməli və bu yolla torpağın məhsuldarlıq qabiliyyətini qorumaqla yanaşı yaxşılaşdırmalıdır. Torpaqda qida elementlərinin idarəolunması aşağıdakı məqsədlərə çatmaq üçün vasitədir:

5.1.1. xərclərə qənaət etməklə bol və yüksək keyfiyyətli məhsul almaq;

5.1.2. torpağın məhsuldarlıq qabiliyyətini və davamlı istifadəsini təmin etmək;

5.1.3. gübrə ehtiyatlarından effektiv və səmərəli istifadə etmək;

5.1.4. izafi gübrə normasından yayınmaqla torpağın çirklənmədən mühafizə etmək və ətraf mühiti qorumaq.

5.2. Torpaqdakı qida elementinin miqdarı bizə həmin torpağın bitkilərin qidalanmasını təmin etmək qabiliyyəti haqqında məlumat verir. Buna görə də fermer torpaq analiz (tədqiqat) nəticələrinə uyğun gübrələmə proqramı hazırlamalıdır.

5.3. Torpaq analizi (tədqiqatı) nəticələri düzgün gübrələmə planının seçilməsini, subsidiyaların səmərəli istifadəsini, ölkənin aqrokimyəvi xəritəsinin formalaşmasını və torpaq ehtiyatlarından dayanıqlı istifadəni təmin edir.